# Heydər Əliyev və milli-mənəvi dəyərlərə qayıdış

Mayın 12-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı və




Qəbələ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və milli-mənəvi dəyərlərə qayıdış" mövzusunda regional konfrans keçirilib. Konfransda müvafiq dövlət orqanlarının nümayəndələri, Qəbələ, Oğuz və Şəki rayonlarında fəaliyyət göstərən 180-dan çox din xadimi iştirak edib. Öncə konfrans iştirakçıları Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edərək, önünə gül dəstələri düzmüşlər. Heydər Əliyev Konqress Mərkəzində keçirilən konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev konfransı giriş sözü ilə açaraq konfrans iştirakçılarını salamlamış, tədbirin təşkilatçılarına rayon ictimaiyyəti adından təşəkkürünü bildirmiş, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış Azərbaycan Respublikasının ilk Konstitusiyasının ölkəmizdə genişmiqyaslı islahatların əsasını təşkil etdiyini, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik siyasəti nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpa edildiyini qeyd edərək, Qəbələdə milli-mənəvi dəyərlərimizin, eləcə də tolerantlıq və multikulturalizm prinsiplərinin qorunması məqsədilə görülmüş işlərdən danışmışdır. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov çıxışında bildirmişdir ki, müasir dövrdə, qloballaşmanın vüsət aldığı indiki tarixi mərhələdə milli-mənəvi dəyərlərin hüdudlarını müəyyənləşdirmək getdikcə çətinləşir. Bir çox xalqlar iki yolun ayrıcında - qloballaşma ilə ayaqlaşmaq və milli-mənəvi dəyərləri qorumaq arasındakı çox incə xətti müəyyən etmək kimi çətin seçim qarşısında qaldığı halda Azərbaycan öz dəyərlərinə sadiqlik prinsipini seçib. Milli Məclisin deputatı Eldar İbrahimov isə konfransın əhəmiyyətinə diqqət çəkərək bildirib ki, Ulu Öndər Heydər Əliyev dövlət quruculuğu prosesi ilə paralel surətdə mədəni-mənəvi quruculuq və milli-tarixi yaddaşın bərpası işlərini də həyata keçirirdi. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan və milli-mənəvi dəyərlərə əsaslanan islahatların başlıca məqsədi müasir dünya çağırışlarına cavab verən güclü, rəqabətədavamlı və vətəndaşların rifahını təmin edən dövlətin qurulmasıdır.



Regional konfrans işini panel iclasları ilə davam etdirmişdir.

Konfransın "Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusuna həsr olunan birinci panel sessiyasına Azərbaycan Respublikası Milli Məclisinin deputatı Hikmət Məmmədov moderatorluq edib. Çıxış edənlər - Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Aqil Şirinov, AMEA-nın A.A.-Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Qərbi Azərbaycan tarixi" şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Elşən Musayev Azərbaycanda dövlət-din münasibətlərinin dünyəvilik prinsipi ilə tənzimlənməsindən, Heydər Əliyevin milli-mənəvi dəyərlərə, adət-ənənələrə, dini etiqada əsaslanaraq, çox böyük milli-əxlaqi və bəşəri duyğuları özündə cəm edən, cəmiyyətimizə, xüsusən də gənclərimizə böyük örnək olan dahi şəxsiyyət olmasından danışmışlar.

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) müəllimi Müşfiq Şükürovun (Ötgün) moderatorluğu ilə "Azərbaycanda ənənəvi dini mühit və ona qarşı təhdidlər" mövzusunda keçirilən ikinci paneldə çıxış edən AİI-nin Elm və innovasiyalar üzrə prorektoru, fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlov, AİI-nin Dinşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Anar Qafarov, AİI-nin Dinşünaslıq kafedrasının müəllimi, sosiologiya üzrə fəlsəfə doktoru Daşdəmir Mahmandarov ölkəmizdə tarixən formalaşmış dini mühitin tolerantlıq, qarşılıqlı anlaşma və məzhəblərarası həmrəylik üzərində qurulduğundan, dünyəvi dövlətdə dini təhdidlər və tədbir mexanizmləri haqqında danışmışlar.

Regional konfransın yekununda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov bildirib ki, qlobal çağırışlar, dünyada baş verən mürəkkəb proseslər dini-ideoloji sahəyə diqqətin artırılmasını, bu sahədə dövlət qurumları, vətəndaş cəmiyyəti institutları və inanclı kontingent arasında təbii harmoniyanın möhkəmləndirilməsini zəruri edir. Komitə sədri mühüm məsələlərin müzakirə edildiyi və faydalı təcrübələrlə zəngin olan silsilə regional konfransların bu baxımdan mühüm əhəmiyyət kəsb etdiyini vurğulamışdır.

**Fotolar S. Umuyevindir.**

# Heydər Əliyev xalqına sədaqətlə xidmət etmişdir

O xalq xoşbəxtdir ki, çətinə-dara düşəndə onu işıqlı gələcəyə aparan bir rəhbəri olur, faciə və müsibətlərə düçar olanda müdrik el ağsaqqalı dəyərli nəsihətləri ilə yol göstərir, keşməkeşli yollarda ən yaxşı bələdçi, bir sözlə xalqa mayak olur. Hər bir xalqın tarixində belə şəxsiyyətlər əməli ilə şərəfli tarix yazır, özündən sonra əbədi, milli-mənəvi irs qoyur. Azərbaycan xalqının taleyində də Heydər Əliyev bu missiyanı həyata keçirərək xalqın qəlbində əbədiölməzlik qazandı. Xalqın taleyinə günəş kimi doğdu, itib-batmaq təhlükəsində olan zamanda əbədi bir xilaskar kimi öndə durdu. Ölüm dileması qarşısında qalan nəhəng Azərbaycan xalqını uçurumdan xilas etdi. Bir sözlə Heydər Əliyev Azərbaycanı, xalqı işıqlı gələcəyə aparmaq üçün dünyaya gəldi və bu işi uğurla həyata keçirərək əbədiyyətə qovuşdu. Özündən sonra Azərbaycan tarixinin şanlı, şərəfli səhifələrini yazdı, ulu öndər, müdrik el ağsaqqalı kimi qəlblərə köçdü. Bütün hakimiyyət illərində fikri, düşüncəsi yalnız Azərbaycan və azərbaycanlılar oldu. Sərhəd bilmədən harada azərbaycanlı varsa onun mühafizəçisi oldu. Həyata keçirdiyi hər əməldə xalqı, vətəni, vətən övladlarının taleyini düşündü. Xalq, vətən üçün doğulmuş insan, dahi şəxsiyyət, müdrik el ağsaqqalı kimi əzmlə çalışdı. Sovet Azərbaycanı dövründə - 1969 - 82-ci illərdə Azərbaycanı ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə gətirib çıxarmışdır. Müstəqil Azərbaycanın sənaye və iqtisadi potensialı məhz o illərdə formalaşmışdır. Məhz o illərdə yetişmiş kadrlar müstəqil Azərbaycanda və bu gün də fəaliyyət göstərərək bizim ümumi inkişafımızı təmin edirlər. 1970-ci illərin əvvəlində Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi məktəbin açılması, 1980-ci illərin əvvəlində regionlarda muzeylərin yaradılması, 17.000 tələbənin xaricdə 250 ixtisas üzrə təhsilinin təmini, rayonlararası magistral yolların salınması, yerli ümumtəhsil müəssisələrin və uşaq baxçalarının sayının artırılması, yeni binalarda fəaliyyəti məhz ulu öndərin birinci hakimiyyəti illərində əsaslı şəkildə həyata keçirildi. Azərbaycanın tanınmış simalarının, ziyalılarının heykəllərinin ucaldılması, geniş parkların salınması və s. kimi genişmiqyaslı işləri uğurla yerinə yetirdi. Bu günün xoşbəxt, işıqlı, firavan Azərbaycanı üçün əzmlə çalışdı. Birinci hakimiyyəti illərində geridə qalan Azərbaycanı daha da irəli apardı və iqtisadi inkişafın başlanğıcını qoydu. Kənd təsərrüfatında, ümumi olaraq aqrar sahədə islahatlar aparmaqla böyük uğura imza atdı. Həmin illərdə Qəbələ də bu inkişaf yoluna qədəm qoydu. Ulu öndərin 1978-ci il Qəbələyə gəlişi məhz iqtisadi yüksəlişə dəstək və irəliyə doğru addımın başlangıcı oldu. Qəbələ RLS-nın tikilməsi, enerji ilə təmin olunması məsələsində Heydər Əliyev müdrik şəxsiyyət kimi fikirlərini irəli sürdü. 2500 illik tarixə malik Qafqaz Albaniyasının qədimliyini qorumaq, gələcəyinin tam şəkildə mühafizəsi üçün əməli fəaliyyətini ortaya qoydu. Mingəçevirdən gələn elektrik xətlərinin Qədim Qəbələ ərazisindən kənar şəkildə çəkilməsinə nail oldu. Bir sözlə, ulu öndərin gücü və müdrikliyi Azərbaycanı bir çətir kimi qorudu və bu missiya onun bütün hakimiyyət illərində prioritet olaraq qaldı. Qəbələ - Bakı avtomagistral yolun çəkilməsi, tütün fermentləmə fabrikinin, şirə zavodunun fəaliyyətə başlaması, burada çalışan fəhlələrin mənzillərlə təmin edilməsi məqsədi ilə Qəbələdə beşmərtəbəli binaların inşası da məhz Heydər Əliyevin əməli işinin bəhrəsidir.



Ulu öndərin ikinci dəfə hakimiyyətə gəlişi xalqın sevgisinə bağlı oldu. Xalqın təkidli tələbi ilə 15 iyun 1993-cü il Bakıya dəvət aldıqdan sonra həmin ilin 3 oktyabr tarixində ümumi səs çoxluğu ilə prezident seçildi. Hakimiyyətə gəlməmişdən öncə 20 Yanvar faciəsindən sonra yenə də xalqımızın haqq səsini dünyaya məhz ulu öndər çatdırmışdır. Yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək öz haqq səsini ucaltmış, sovet hökumətinin, Sovet İttifaqının rəhbərliyinin bu qanlı əməlini pisləmiş və bu qırğınla bağlı dünyaya bəyanat vermişdir. Yeri gəlmişkən qeyd edək ki,məhz ulu öndər Heydər Əliyevin qətiyyəti, fəaliyyəti nəticəsində Naxçıvan torpaqları ermeni işğalına məruz qalmadı. Azərbaycanda hakimiyyətdə olan qüvvələr hər vechlə çalışırdı ki, Heydər Əliyev Naxçıvandan uzaqlaşdırılsın. Naxçıvan blokadada boğulurdu, xain qüvvələr isə Naxçıvana qarşı təxribatlar törədirdilər, desant göndərirdilər, çevrilişə cəhd edirdilər. Sanki istəyirdilər ki, Naxçıvan da işğal altına düşsün. Ancaq xalq buna imkan vermədi, öz lideri ətrafında sıx birləşmişdir. Xalq ulu öndər Heydər Əliyevin simasında nicat yolunu gördü və buna nail oldu. Heydər Əliyev 1993-cü ilin oktyabrında böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi, dərhal ciddi islahatlara başlanıldı və bütün azadlıqlar təmin edildi. Azərbaycan dünyaya açıldı, beynəlxalq təcridə son qoyuldu. Böyük diplomatik səylər göstərildi, Qarabağ həqiqətləri dünya ictimaiyyətinə çatdırıldı. Ən nəhayət cəbhədə atəşkəs elan edildi. 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin inkişafında növbəti bir dönüş nöqtəsi oldu. Dünyanın böyük nüfuza malik 7 şirkəti Azərbaycana dəvət aldı. İndi Azərbaycan dövlətinin payına düşən mənfəət neftinin 75 faizi bu gün bizim iqtisadiyyatımızı gücləndirir. Bu gün xarici şirkətlərlə aparılan neft-qaz əməliyyatları çərçivəsində minlərlə milli kadr yetişib. Bu gün "Əsrin müqaviləsi"nin icrasında işləyən insanların 90 faizi Azərbaycan vətəndaşlarıdır. Elə kadrlar yetişdi ki, bu gün istənilən sahədə işləyə bilərlər. Bu da ölkəmizə böyük əlavə üstünlük verir. Bu gün bunun bariz nümunəsi olaraq Azərbaycanın iqtisadi sahədə irəliləyişini aydın görürük.İqtisadiyyatımız inkişaf etdikcə digər sahələrdə də yüksəliş, uğur əldə etməkdəyik. Bütün bunlar ulu öndərin ənənələri əsasında formalaşmış bir dövlət siyasəti oldu.

Hər bir yüksəliş sübut edir ki, Heydər Əliyev bütün dövrlərdə öz doğma xalqına sədaqətlə xidmət etmişdir.

**İlhamə SEYİDOVA,**
**"Qəbələ"nin ştatdankənar müxbiri.**